Səhiyyə mütəxəssislərinin ilkin akkreditasiyası

SECHENOV UNIVERSITY
LIFE SCIENCES

Azerbaijan Medical Simulation Education Association

SIMULATION CENTER SECHENOV UNIVERSITY BAKU

# OSKİ BƏLƏDÇİSİ

## Pasiyentin ginekoloji müayinəsi

İxtisas:
Müalicə işi

# Mündəricat

1. Peşə standartı (əmək funksiyaları) ....................4
2. Pasportun tərtibatçıları haqqında ....................4
3. Stansiyanın iş müddəti....................4
4. Stansiyanın vəzifəsi....................4
5. Stansiyanın işinin təmin edilməsi üzrə məlumat ....................5
5.1. İAK üzvünün iş yeri....................5
5.2. Akkreditə olunan şəxsin iş yeri ....................5
5.2.1. Mebel və digər avadanlıqların siyahısı....................6
5.2.2. Tibbi avadanlığın siyahısı....................6
5.2.3. Sərfiyyat materialları....................6
5.2.4. Stansiyanın simulyasiya avadanlığı və onun xüsusiyyətləri....................7
6. Stansiyanın situasiyalarının (ssenarilərinin) siyahısı ....................7
7. Akkreditə olunan şəxs üçün məlumat (brifinq) ....................7
8. İAK üzvlərinin, köməkçi heyətin hazırlıq mərhələsində (stansiyada işə başlamazdan əvvəl) fəaliyyəti....................8
9. İAK üzvlərinin, köməkçi heyətin stansiyanın iş prosesində fəaliyyəti....................8
10. Stansiyanın pasportunun normativ-metodik təminatı ....................16
11. Akkreditə olunan şəxs/İAK üzvləri üçün istinad məlumatı (Əlavə 1-2)....................16
12. Akkreditə olunan şəxsin fəaliyyətlərinin qiymətləndirilməsi meyarları....................16
13. Vərdişin yerinə yetirilməsi alqoritmi ....................17
14. Vərdişin yerinə yetirilməsi alqoritmi (süd vəzilərinin palpasiyası)....................21
15. Könüllü-məlumatlı razılıq ....................23
16. Tibbi sənədləşmə....................25
Əlavə 1 ....................31
Əlavə 2 ....................32
ÇEK-LİST ....................34

**Ümumi müddəalar.** Mütəxəssislərin ilkin akkreditasiyasının ikinci mərhələsi və ilkin ixtisaslaşdırılmış qiymətləndirilməsi üçün obyektiv strukturlaşdırılmış klinik imtahan (OSKİ) stansiyalarının (sonradan stansiyalar) pasportları – stansiyanın təchizatı üzrə zəruri məlumatı, brifinqi (stansiyaya daxil olmamışdan əvvəl qısa tapşırıq), ssenariləri, qiymətləndirmə vərəqlərini (sonradan çek-list), məlumat mənbələrini, istinad məlumatlarını və s. özündə əks etdirən sənəddir, akkreditə olunan şəxsin konkret praktik vərdişə (bacarığa) yiyələnməsinin qiymətləndirilməsi üçün metodik və istinad materialı kimi nəzərdə tutulub və səhiyyə mütəxəssislərinin peşə fəaliyyətinə hazırlıq səviyyəsinin qiymətləndirilməsi üçün istifadə olunur.

Konkret ixtisas üzrə praktik vərdişlərin xüsusiyyətlərinin qiymətləndirilməsi konkret ssenarilərin seçilməsi vasitəsilə həyata keçirilə bilər. Bu qərarı, ixtisas üzrə akkreditasiya alt-komissiyası (sonradan İAK) mütəxəssislərin akkreditasiyasının ikinci mərhələsinin keçirildiyi gün qəbul edir.

Praktik vərdişlərin qiymətləndirilməsi prosedurunun standartlaşdırılmasının təmin edilməsi məqsədilə tapşırığın şərtləri və çek-list hamı üçün vahiddir.

Akkreditə olunan şəxslərə akkreditasiyanın ikinci mərhələsinə xüsusi geyimdə (tibbi geyim, dəyişək ayaqqabı, papaq, fərdi mühafizə vasitələri) gəlməli olduqlarını əvvəlcədən elan etmək məqsədəuyğundur.

## 1. Peşə standartı (əmək funksiyaları)

1.1. Səhiyyə sahəsinə aid olan qulluqçu vəzifələrinin və fəhlə peşələrinin Vahid Tarif-İxtisas Sorğu Kitabçası (Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin 19 iyun 2017-ci il tarixli 8 nömrəli qərarı ilə təsdiq edilmişdir).

1.2. Tibb müəssisələrində çalışan tibb, əczçılıq və digər ixtisaslar üzrə işçilərin nümunəvi vəzifə təlimatları (Azərbaycan Respublikası Səhiyyə Naziri 19 sentyabr 2012-ci il tarixli 70 nömrəli əmri ilə təsdiq edilmişdir).

## 2. Pasportun tərtibatçıları haqqında

Tərtibatçı təşkilat:

2.1. İ.M. Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Bakı filialı

2.2. AMSEA – Azərbaycan tibbi simulyasiya tədrisi Assosiasiyası

## 3. Stansiyanın iş müddəti

Vərdişin yerinə yetirilməsinin ümumi müddəti – 10 dəqiqə.

Akkreditə olunan şəxsin stansiyada keçirdiyi vaxt – 8,5 dəqiqədən az olmayaraq (akkreditə olunan şəxs praktik vərdişi vaxtından əvvəl yerinə yetirdikdə “Növbəti stansiyaya keçin” səs komandası verilənə qədər stansiyada qalır).

Cədvəl 1

**Praktik vərdişin yerinə yetirilmə müddəti**

| Komandanın səslənmə vaxtı | Səs komandası | Akkreditə olunan şəxsin fəaliyyəti | Vərdişin yerinə yetirilməsi müddəti |
|---|---|---|---|
| 0’ | Stansiyanın tapşırığı ilə tanış olun | Tapşırıqla (brifinqlə) tanışlıq | 0,5’ |
| 0,5’ | Stansiyaya daxil olun və logininizi deyin | Stansiyada işə başlama | 8,5’ |
| 8,0’ | Sizin bir dəqiqəniz qalıb | Stansiyada işin davam etdirilməsi | |
| 9,0’ | Növbəti stansiyaya keçin | Stansiyanı tərk edir və fərdi marşruta əsasən növbəti stansiyaya keçir | 1’ |

## 4. Stansiyanın vəzifəsi

Akkreditə olunan şəxs tərəfindən aşağıdakı bacarıqların nümayişi:

I. Pasiyentin ginekoloji müayinəsinin aparılması, o cümlədən: anamnez, xarici cinsiyyət orqanlarına baxış, uşaqlıq yolunun divarlarına və uşaqlıq boynuna güzgülərlə baxış, Papanikolau üsulu ilə boyanmış yaxmanın sitoloji müayinəsi üçün bioloji materialın alınması, servikal kanaldan və uşaqlıq yolundan mikroskopiya üçün yaxmanın götürülməsi, daxili cinsiyyət orqanlarının bimanual müayinəsi.

II. Uşaqlıq yolu müayinəsinin məlumatlarını doğru və tam həcmdə səsləndirməsi.



tsm@mma.edu.az

III. Müayinə nəticələrini düzgün ifadə edərək pasiyenti məlumatlandırmaq.

IV. Sonrakı müayinə planı və təkrar gəliş tarixi haqqında pasiyenti məlumatlandırmaq.

V. Süd vəzilərinin və regionar limfa düyünlərinin baxışı və palpasiyasının həyata keçirilməsi, gilədən ifrazat aşkar etdikdə sitoloji tədqiqat üçün biomaterialın götürülməsi, baxış və palpasiya zamanı məlum olan nəticələrin interpretasiyası və AR SN-nin mövcud əmrlərinə və Azərbaycanın mövcud klinik protokol və tövsiyələrinə uyğun olaraq gələcək müayinə taktikasının müyyən edilməsi, müalicəsi və pasiyentin müşahidəsi.

VI. Akkreditə olunan şəxs tərəfindən ambulator pasiyentin tibbi sənədində aşağıdakıların doldurulması: sorğu cədvəli yekun nəticə ilə, sonrakı müayinə planı və təkrar gəliş tarixi.

VII. Pasiyentə baxış və palpasiya nəticələri, sonrakı müayinə planı və təkrar gəliş tarixi barədə məlumat vermək.

## 5. Stansiyanın işinin təmin edilməsi üzrə məlumat

Stansiyanın işinin təşkili üçün aşağıdakılar nəzərdə tutulmalıdır:

### 5.1. İAK üzvünün iş yeri

Cədvəl 2

İAK üzvünün iş yeri

| № | Avadanlığın siyahısı | Miqdar |
|---|---|---|
| 1 | İş masası (işlək səht) | 1 əd. |
| 2 | Oturacaq | 2 əd. |
| 3 | Akkreditə olunan şəxsin iş yerindən, stansiyanın pasportunda nəzərdə tutulmuş giriş məlumatını vermək qabiliyyətinə malik video və audio yazıların[1] yayımlanması üçün qurğu | 1 əd. |
| 4 | Qulaqlıqlar | 2 əd. |
| 5 | Stansiyanın pasportunda nəzərdə tutulan giriş məlumatlarını vermək imkanı ilə mikrofon | 1 əd. |
| 6 | Kağız şəklində çek-listlər (texniki nasazlıqların yarandığı hallar üçün, adi rejimlə iş zamanı istifadə olunmur) | Akkreditə olunan şəxslərin sayına uyğun |
| 7 | Diyircəkli qələm | 2 əd. |

### 5.2. Akkreditə olunan şəxsin iş yeri

Stansiya iş otağını imitasiya etməli, avadanlığa (təchizata) və sərfiyyat materiallarına malik olmalıdır (akkreditə olunan şəxslərin cəhdlərinin sayı nəzərə alınmaqla):

[1] İAK sədri ilə razılaşdırılmaqla akkreditə olunan şəxsin işinin təsvirinin videoyazısını yayımlayan qurğu digər yerdə ola bilər və İAK üzvlərinin videoyazıya yenidən baxa bilməsi üçün həmin yerə maneəsiz girişi təmin edilməlidir.



tsm@mma.edu.az

### 5.2.1. Mebel və digər avadanlıqların siyahısı

Cədvəl 3

Mebel, digər avadanlıq və sənədlərin siyahısı

| № | Mebel və digər avadanlıqların siyahısı | Miqdar |
|---|---|---|
| 1 | İş masası | 1 əd. |
| 2 | Oturacaq | 1 əd. |
| 3 | Birdəfəlik mələfə ilə örtülü ginekoloji kreslo (manekenin yerləşdirilməsi üçün) | 1 əd. |
| 4 | Alət masası | 1 əd. |
| 5 | Kran və ya onun imitasiyası | 1 əd. |
| 6 | Maye sabun dispenseri (imitasiya ola bilər) | 1 əd. |
| 7 | Kağız dəsmal | 1 əd. |
| 8 | Saniyə əqrəbli divar saatı | 1 əd. |
| 9 | Doldurulmuş blanklar-ginekoloji analizlər üçün yönləndirmələr (dəst: mikroskopiya, sitologiya) | 1 əd. |
| 10 | Doldurulmuş könüllü-məlumatlı razılıq blankı | 1 əd. |

### 5.2.2. Tibbi avadanlığın siyahısı

Cədvəl 4

Tibbi avadanlığın siyahısı

| № | Tibbi avadanlığın siyahısı | Miqdar |
|---|---|---|
| 1 | Ginekoloji güzgü Kusko | 1 əd. |
| 2 | Kornsanq (şərti olaraq birdəfəlik istifadə üçün) | 1 əd. |
| 3 | İşıq mənbəyi | 1 əd. |
| 4 | 10 litr həcmli A sinif tullantıların utilizasiyası üçün konteyner | 1 əd. |
| 5 | 10 litr həcmli B sinif tullantıların utilizasiyası üçün konteyner | 1 əd. |
| 6 | Dezinfeksiya edici məhlullu konteyner | 1 əd |
| 7 | Sitoloji yaxmalar üçün fiksatorlu aerozol flakonu | 1 əd. |
| 8 | Şüşə üçün marker | 1 əd. |

### 5.2.3. Sərfiyyat materialları

Cədvəl 5

Sərfiyyat materialları (akkreditə olunan şəxsin 1 cəhdi üçün)

| № | Sərfiyyat materiallarının siyahısı | Miqdar (akkreditə olunan şəxsin 1 cəhdi üçün) |
|---|---|---|
| 1 | Müxtəlif ölçülü müayinə əlcəkləri (şərti olaraq steril) | 2 cüt |
| 2 | Tənzif kürəcikləri | 2 əd. |



tsm@mma.edu.az

| | | |
|---|---|---|
| 3 | Əl üçün dezinfektant | 1 əd |
| Bioloji material götürmək üçün birdəfəlik alətlər dəsti | | |
| | A tipli universal urogenital zond | 1 əd. |
| 4 | F3/F4 tipli urogenital zond endoservikal fırçalı **və ya, İAK üzvlərinin qərarı ilə,** (əlavə 2)<br>dəst: bir ədəd D tipli sitofırça + bir ədəd F1 tipli urogenital zond;<br>və ya dəst: iki ədəd D tipli sitofırça | 1 əd. |
| | B tipli urogenital zond (Folkman qaşığı) | 1 əd. |
| 5 | Əşya şüşələri | 4 əd. |

### 5.2.4. Stansiyanın simulyasiya avadanlığı və onun xüsusiyyətləri

Cədvəl 6

| № | Simulyasiya avadanlıqlarının xüsusiyyətləri |
|---|---|
| 1 | Maneken – xarici və daxili cinsiyyət orqanlarının (uşaqlıq boynu, uşaqlıq cismi, artımlar) xəstəliklərinin diaqnostikası üçün, ambulator şəraitdə tam spektrli ginekoloji müayinə aparılması imkanları olan yarımgövdə, uşaqlıq cisminin və boynunun norma və patologiyaları dəsti ilə. |
| 2 | Süd vəzisi xəstəliklərinin diaqnostikası üçün, regionar limfa düyünlərinin palpasiyası imkanı olan maneken, norma və patologiyalar (xərçəng şişləri, kistlər, fibrokistik mastopasiyalar, fibroadenomalar) dəsti ilə. |

## 6. Stansiyanın situasiyalarının (ssenarilərinin) siyahısı

Cədvəl 7

| № | Situasiya (ssenari) |
|---|---|
| 1 | Uşaqlıq boynu xəstəliyi ilə pasiyent *(Papanikolau üsulu ilə boyanmış, servikal kanaldan (endoserviks) və uşaqlıq boynunun səthindən (ekzoserviks) ayrıca alınmış ekskoriativ materialın sitoloji müayinəsi).* |
| 2 | Uşaqlıq yolundan ifrazatı olan pasiyent *(mikroskopik müayinə üçün yaxmanın götürülməsi).* |
| 3 | Sağ süd vəzisinin düyünlü törəməsi və gilədən ifrazat ilə pasiyentin ambulator qəbulu. |
| 4 | Süd vəzilərinin profilaktik müayinəsi. |

Situasiyaların seçimi və ardıcıllığını İAK, səhiyyə mütəxəssislərinin ilkin ixtisaslaşdırılmış akkreditasiyasının ilkin təcrübə yönümlü mərhələsinin keçirildiyi gün müəyyən edir.

## 7. Akkreditə olunan şəxs üçün məlumat (brifinq)

Siz ambulator qəbulda həkim mama-ginekoloqsunuz. Pasiyentin şikayətləri əsasında müayinə aparın. Səs komandası ilə stansiyaya daxil olun və müayinəyə başlayın.

**8. İAK üzvlərinin, köməkçi heyətin[2] hazırlıq mərhələsində (stansiyada işə başlamazdan əvvəl) fəaliyyəti**

1. Akkreditə olunan şəxslərin sayı nəzərə alınmaqla, OSKİ stansiyasının standart pasporta uyğun tərtibatının və komplektləşdirilməsinin yoxlanılması.

2. Stansiyada zəruri sərfiyyat materiallarının mövcudluğunun yoxlanılması (akkreditə olunanların sayı nəzərə alınmaqla).

3. Stansiyanın girişində yazılı tapşırığın (brifinqin) mövcudluğunun yoxlanılması.

4. Tibbi sənədlərin stansiyada yerləşdirilməsi (16,17-ci fəsil):

**- pasiyentin doldurulmuş könüllü məlumatlı razılıq blankı;**

**- sitoloji müayinə üçün doldurulmuş yönləndirmə blankı;**

**- mikroskopiya üçün doldurulmuş yönləndirmə blankı;**

**- "Süd vəzisinin limfa düyünlərinin müayinəsinin qrafik protokolu" bölməsinə qədər ambulator pasiyentin ssenari üzrə doldurulmuş tibbi arayışı** (akkreditə olunanların sayı nəzərə alınmaqla).

5. Kabinetin müayinə hissəsində ginekoloji baxış üçün ginekoloji kresloda yerləşdirilmiş yarımgövdənin mövcudluğunu yoxlamaq.

6. Kabinetin müayinə hissəsində, çarpayının və ya onun imitasiyasının yanında vertikal formada yerləşən, süd vəzilərinin baxışı üçün nəzərdə tutulmuş gövdənin mövcudluğunu yoxlamaq.

7. Videoyazılarının videomüşahidə otağına (mövcud olduqda) yayımlanmasının hazırlığının yoxlanılması.

8. Stansiyanın normal işi üçün lazım olan digər tədbirlərin yerinə yetirilməsi.

**9. İAK üzvlərinin, köməkçi heyətin stansiyanın iş prosesində fəaliyyəti**

1. "Stansiyanın tapşırığı ilə tanış olun" komandası ilə videokameranın işə salınması (zəruri hallarda).

[2] Praktik vərdişin yerinə yetirilməsinin qiymətləndirilməsinin rahatlığı və obyektivliyi üçün daha bir İAK (İAK üzvlərindən və y yardımçı heyətdən) mütəxəssisinin cəlb olunması məqsədəuyğundur. İAK üzvü akkreditə olunan şəxsin fəaliyyətlərini vizual müşahidə edir, kameraları idarə edir və çek-listi doldurur; ikinci İAK üzvü/köməkçi heyət də həmçinin akkreditə olunan şəxsin fəaliyyətlərini vizual müşahidə edir, ona əks əlaqə yaradır və simulyatorları/trenajorları idarə edir.

2. Akkreditə olunan şəxsin fəaliyyətlərinin audio-video yazısının keyfiyyətinə nəzarət (zəruri hallarda).

3. Çek-listdəki parametrlərə əsaslanaraq, akkreditə olunan şəxsin işinin ardıcıl olmasının, düzgün/qeyi-düzgün fəaliyyətinin qeydə alınması.

4. Akkreditə olunan şəxslə pasiyentin adından minimal zəruri dialoqun aparılması və situasiyanın (ssenarinin) yerinə yetirilməsi üçün əlavə giriş məlumatlarının təmin edilməsi (cədvəl 7) (ssenari ilə nəzərdə tutulduqda).

5. Özündən heç nə danışmamaq, hətta akkreditə olunan şəxsin fikri ilə razılaşmadığınızda belə danışıqlara getməmək qaydasına riayət etmək. Aydınlaşdırıcı suallar verməmək, tələblər irəli sürməmək.

6. Akkreditə olunan şəxsə "Növbəti stansiyaya keçin" komandası verildikdən sonra istifadə olunan simulyasiya avadanlığının və otağın ilkin vəziyyətə gətirilməsi.

Az iş təcrübəsinə malik İAK üzvləri üçün stansiyanın hazırlanması və çek-listin doldurulması üçün vaxt aralığının artırılmasına yol verilir. Bu halda vaxt aralığı stansiyanın iş dövrünə (10 dəqiqə) bərabər olmalıdır.

Cədvəl 8

**Akkreditə olunan şəxsin iş prosesi zamanı nümunə şərhləri:**

| № | Akkreditə olunan şəxsin fəaliyyəti | Akkreditə olunan şəxsin təqribi mətni |
|---|---|---|
| **1** | Pasiyentlə kontakt yaratmaq (salamlaşmaq, özünü təqdim etmək, öz rolunu qeyd etmək) | «Salam!»<br>«Mənim adım ________________(SAA)»<br>«Mən Sizin həkim mama-ginekoloqunuzam» |
| **2** | Pasiyenti identifikasiya etmək (özünü təqdim etməyi xahiş etmək) | «Özünüzü təqdim edin, zəhmət olmasa. Mən Sizə necə müraciət edə bilərəm?» |
| **3** | Fərdi kartı ilə pasiyentin kimliyini yoxlamaq | «Pasiyent identifikasiya edildi» |
| **4** | Pasiyentdən vəziyyətini soruşmaq | «Özünüzü necə hiss edirsiniz, Aliyə xanım?» |
| **5** | Pasiyentdən şikayətlərini soruşmaq | «Hər hansı bir şikayətiniz varmı?» |
| **6** | Aparılacaq proseduru səsləndirmək və onun məqsədini izah etmək | «Sizə, uşaqlıq boynu xəstəliklərinin mövcudluğunu aşkar etmək və sitoloji/mikroskopik müayinə üçün yaxma götürmək məqsədi ilə, uşaqlıq boynunun güzgülərlə müayinəsini edəcəyik» |

| | | |
|---|---|---|
| **7** | Aparılacaq prosedur üçün pasiyentdən könüllü məlumatlı razılıq almaq | «Qeyd edilən prosedurun yerinə yetirilməsinə etirazınız varmı?» |
| **8** | Manipulyasiya masasını hazırlamaq | «İkilaylı steril güzgü, steril mələfə ilə örtülmüş masanın üzərindədir» |
| **9** | Pasiyenti hazırlamaq | «Pasiyent birdəfəlik mələfə ilə örtülmüş ginekoloji kresloda uzanıb» |
| **10** | Əlləri gigiyenik üsulla təmizləmək | «Əllərimi gigiyenik üsulla təmizləyirəm» |
| **11** | İşlək əllə ikilaylı güzgünü düz ölçüdə uşaqlıq yolunun ortasına kimi daxil etmək. Güzgünü köndələn ölçüyə çevirib tağlara qədər yeritmək | «İkilaylı güzgünü düz ölçüdə uşaqlıq yolunun ortasına kimi daxil edirəm. Güzgünü köndələn ölçüyə çevirib tağlara qədər yeridirəm» |
| **12** | Uşaqlıq boynunun uşaqlıq yolu hissəsinə baxış keçirmək və qiymətləndirmək: forması, rəngi, xarici dəlik, patoloji törəmələrin mövcudluğu, ifrazatın xüsusiyyəti | «Uşaqlıq boynu silindrik/konusvari formadadır, rəngi solğun çəhrayıdır, servikal kanalın xarici dəliyi yarıqvaridir, patoloji törəmələr yoxdur, ifrazat seliklidir» |
| **13** | Sitoloji/mkroskopik müayinə üçün yaxma götürmək | 1. «Sitofırçanı götürürəm, əsasən ekzoserviksə yerləşdirməyə çalışaraq, servikal kanala yeridirəm, 5 dəfə saat əqrəbi istiqamətində ilk «qanlı şeh» damcılarını alana kimi dairəvi hərəkətlərlə fırladıram»<br>2. «Folkman qaşığını götürürəm, kiçik tərəfi ilə servikal kanaldakı ifrazatdan götürəm və şüşədə «C» hərfi ilə nişanlanmış nahiyyəyə nazik lay ilə çəkirəm. Folkman qaşığının enli tərəfi ilə ilə uşaqlıq yolu tağındakı ifrazatdan götürürəm və şüşədə «V» hərfi ilə nişanlanmış nahiyyəyə nazik lay ilə çəkirəm» |
| **14** | Güzgünü sabitləşdiricidən çıxarmaq, güzgünü tədricən çıxararaq uşaqlıq yolunun divarlarına baxış keçirib qiymətləndirmək: rəngi, patoloji törəmələrin mövcudluğu, ifrazatın xüsusiyyəti | «Uşaqlığı zədələmədən güzgü laylarını tədricən bağlayıraq uşaqlıq yoluna baxış keçirirəm. Uşaqlıq yolu divarlarının selikli qişası solğun çəhrayı rəngdədir, patoloji törəmələr yoxdur, ifrazat qanlıdır/qoxuludur» |
| **15** | Bimanual palpasiyanı həyata keçirmək | «Uşaqlıq cisminin, uşaqlıq artımlarının, uşaqlıq yolu tağlarının bimanual palpasiyasını həyata keçirirəm» |



tsm@mma.edu.az

Cədvəl 9

**İAK üzvünün və akkreditə olunan şəxsin dialoqu çərçivəsində giriş məlumatının nümunə mətnləri:**

| № | Akkreditə olunan şəxsin praktik fəaliyyəti | Giriş mətni |
|---|---|---|
| **1** | Akkreditə olunan şəxs pasiyentin soyadını, adını və doğulduğu tarixi dəqiqləşdirdiyi zaman | «Əliyeva Aliyə, 17.03.19XX» |
| **2** | Pasiyentin vəziyyətini soruşduğu zaman | «Normal» |
| **3** | Akkreditə olunan şəxs pasiyentin şikayətlərini soruşduqda | 1. «Profilaktik müayinə üçün gəlmişəm»<br>2. «Qaşınma, qoxulu ifrazat narahat edir» |
| **4** | SAT barədə soruşduqda | «SAT 2 həftə əvvəl olub» |
| **5** | Prosedura könüllü - məlumatlı razılığın mövcudluğunu yoxlayarkən | «Hesab edək ki, könüllü - məlumatlı razılıq alındı» |
| **6** | Əlləri yumağa cəhd etdikdə | «Hesab edək ki, əllər təmizləndi» |
| **7** | Əşya şüşələrini işarələməyə cəhd etdikdə | «Hesab edək ki, əşya şüşələri işarələndi» |
| **8** | Akkreditə olunan şəxs güzgünü uşaqlıq yoluna daxil edib uşaqlıq boynunu güzgülərə açdıqda | 1. «İfrazat seliklidir»<br>2. «İfrazat qoxuludur» |
| **9** | Akkreditə olunan şəxs tərəfindən servikal kanala D tipli sitofırça və ya F3/F4 urogenital zond daxil edildikdə və şərh edərək sitofırçanı və ya zondu ilk “qanlı şeh” damcılarını alana kimi fırladacağını bildirdikdə | «Siz ilk qanlı şeh damcıları aldınız» |
| **10** | Akkreditə olunan şəxs bimanual uşaqlıq müayinəsinə keçməzdən öncə Kusko güzgüsünü çıxardıqdan sonra birdəfəlik steril əlcəkləri dəyişməyə cəhd etdikdə | «Hesab edək ki, əlcəklər dəyişdirildi» |
| **11** | Uşaqlığın palpasiyası zamanı ağrının olub-olmaması barədə sual verdikdə | «Ağrı yoxdur» |
| **12** | Sağ uşaqlıq artımlarının palpasiyası zamanı ağrının olub-olmaması barədə sual verdikdə | «Ağrı yoxdur» |
| **13** | Sol uşaqlıq artımlarının palpasiyası zamanı ağrının olub-olmaması barədə sual verdikdə | «Ağrı yoxdur» |



tsm@mma.edu.az

| | | |
|---|---|---|
| **14** | Uşaqlıq yolu tağlarının palpasiyası zamanı ağrının olub-olmaması barədə sual verdikdə | «Ağrı yoxdur» |
| **15** | Akkreditə olunan şəxs müayinənin bitdiyi barədə məlumat verib, pasiyentə təşəkkür edərək, ondan geyinib masanın yanındakı oturacağa əyləşməsini xahiş etdikdə | «Hesab edək ki, pasiyent geyindi və Sizin iş masanınız yanındakı oturacağa əyləşdi» |

Cədvəl 10

**Akkreditə olunan şəxsin iş prosesi zamanı nümunə şərhləri:**

| **№** | **Akkreditə olunan şəxsin fəaliyyəti** | **Akkreditə olunan şəxsin təqribi mətni** |
|---|---|---|
| **1** | Pasiyentlə kontakt yaratmaq (salamlaşmaq, özünü təqdim etmək, öz rolunu qeyd etmək) | «Salam!»<br>«Mənim adım ________________(SAA)»<br>«Mən Sizin həkim mama-ginekoloqunuzam» |
| **2** | Pasiyenti identifikasiya etmək (özünü təqdim etməyi xahiş etmək) | «Özünüzü təqdim edin, zəhmət olmasa. Mən Sizə necə müraciət edə bilərəm?» |
| **3** | Fərdi kartı ilə pasiyentin kimliyini yoxlamaq | «Pasiyent identifikasiya edildi» |
| **4** | Pasiyentdə vəziyyətini soruşmaq | «Özünüzü necə hiss edirsiniz, Aliyə xanım?» |
| **5** | Pasiyentdən şikayətlərini soruşmaq | «Hər hansı bir şikayətiniz varmı?» |
| **6** | Aparılacaq proseduru səsləndirmək və onun məqsədini izah etmək | «Sizi patoloji dəyişikliklərin mövcudluğunu aşkar etmək məqsədilə süd vəzilərinin müayinəsi proseduru gözləyir» |
| **7** | Aparılacaq prosedur üçün pasiyentdən könüllü məlumatlı razılıq almaq | «Qeyd edilən prosedurun yerinə yetirilməsinə etirazınız varmı?» |
| **8** | Pasiyenti hazırlamaq | «Pərdənin arxasına keçin, zəhmət olmasa, qurşağa qədər soyunun və əllərinizi gövdə boyu aşağı salın» |
| **9** | Əlləri gigiyenik üsulla təmizləmək | «Əllərimi gigiyenik üsulla təmizləyirəm» |
| **10** | Vizual olaraq hər bir süd vəzisinə baxış keçirmək və qiymətləndirmək | «Dəri örtükləri fizioloji rəngdədir, süd vəzilərin dəri strukturu patoloji dəyişiksizdir; gilələrdən görünən ifrazat müşahidə olunmur; sağ və sol süd vəziləri simmetrikdir; damar şəkli nəzərə çarpan deyil. Gilələrdə geri çəkilən nahiyyələr yoxdur. İnframammar nahiyyə patologiyasızdır» |
| **11** | Pasiyentdən əllərini yuxarı qaldırmasını və başının arxasında çarpazlamasını xahiş etmək | «Zəhmət olmasa, əllərinizi qaldırın və başınızın arxasında çarpazlayın» |



tsm@mma.edu.az

| | | |
|---|---|---|
| **12** | Süd vəzilərinə təkrar baxış keçirmək | «Dəri örtükləri fizioloji rəngdədir, süd vəzilərin dəri strukturu patoloji dəyişiksizdir; giləlırdən görünən ifrazat müşahidə olunmur; sağ və sol süd vəziləri simmetrikdir; damar şəkli nəzərə çarpan deyil. Gilələrdə geri çəkilən nahiyyələr yoxdur. İnframammar nahiyyə patologiyasızdır» |
| **13** | Arxası üstə uzanmış vəziyyətdə ağrı olmayan süd vəzisində kənardan mərkəzə doğru saat əqrəbi istiqamətində palpasiyaya başlamaq | «Kənardan mərkəzə doğru saat əqrəbi istiqamətində sol/sağ süd vəzisinin palpasiyasını həyata keçirirəm» |
| **14** | Gilələrdən ifrazatın mövcudluğunu yoxlamaq | «Aliyə xanım, gilələrdən ifrazatın mövcudluğunu yoxlamaq üçün, süd vəzilərini gilələrin əsasından sıxıram» |
| **15** | İfrazat olduğu təqdirdə sitoloji müayinə üçün yaxma izi götürmək | «Sitoloji müayinə üçün şüşə götürürəm, ifrazatla iz qoyuram, digər şüşənin kənarı ilə şüşəyə yaxıram və qurumağa qoyuram. Hər süd vəzisindən iki şüşə» |
| **16** | Limfa düyünlərini palpasiya etmək | «Qoltuqaltı limfa düyünlər qrupunu/ paramammar/boyun/körpücüküstü/körpücükaltı limfa düyünlərini palpasiya edirəm» |

Cədvəl 11

**İAK üzvünün və akkreditə olunan şəxsin dialoqu çərçivəsində giriş məlumatının nümunə mətnləri:**

| **№** | **Akkreditə olunan şəxsin praktik fəaliyyəti** | **Akkreditə olunan şəxsin təqribi mətni** |
|---|---|---|
| 1 | Akkreditə olunan şəxs pasiyentin soyadını, adını və doğulduğu tarixi dəqiqləşdirdiyi zaman | «Əliyeva Aliyə, 17.03.19XX» |
| 2 | Pasiyentin vəziyyətini soruşduğu zaman | «Normal» |
| 3 | Akkreditə olunan şəxs pasiyentin şikayətlərini soruşduqda | 3. «Sağ süd vəzisində ağrı və ifrazat narahat edir»<br>4. «Mən süd vəzilərinin profilaktik müayinəsi üçün gəlmişəm» |
| 4 | Süd vəzisindən/vəzilərindən ifrazatla bağlı suallar zamanı | «İfrazatın nə vaxt başladığına diqqət etməmişəm, nə ilə əlaqəli olduğunu bilmirəm, müşayiət edən xəstəliklər yoxdur» |
| 5 | Prosedur üçün könüllü - məlumatlı razılığın mövcudluğunu yoxlayarkən | «Hesab edək ki, könüllü - məlumatlı razılıq alındı» |
| 6 | Müayinədən öncə əlləri yumağa cəhd etdikdə | «Hesab edək ki, əllər  təmizləndi» |

| | | |
|---|---|---|
| 7 | Akkreditə olunan şəxs pasiyentdən əllərini gövdə boyu aşağı salmasını xahiş etdikdə | «Pasiyent əllərini gövdə boyu aşağı saldı» |
| 8 | Akkreditə olunan şəxs pasiyentdən əllərini yuxarı qaldıraraq başının arxasında çarpazlamağı xahiş etdikdə | «Pasiyent əllərini qaldıraraq başının arxasında çarpazladı» |
| 9 | Akkreditə olunan şəxs süd vəzilərinin palpasiyası zamanı ağrının olub-olmadığını soruşarsa | 3. «Sağ süd vəzisində ağrı və axıntı var»<br>4. «Ağrı yoxdu» |
| 10 | Akkreditə olunan şəxs limfa düyünlərinin palpasiyası zamanı ağrının olub-olmadığını soruşarsa | «Limfa düyünlərinin palpasiyası ağrısızdır» |
| 11 | Akkreditə olunan şəxs çarpayıda uzanmış vəziyyət almasını xahiş etdikdə | «Hesab edək ki, pasiyent uzanmış vəziyyət aldı» |
| 12 | Akkreditə olunan şəxs tərəfindən ardıcıl olaraq hər iki tərəfdən barmaqlarla gilənin əsasında süd vəzisi toxumalarını sıxma hərəkətini icra etdikdə | Sualı gözləmədən<br>3. «Gilələrdən ifrazat müşahidə olunur»<br>4. «Gilələrdən ifrazat müşahidə olunmur» |
| 13 | Pasiyentdən geyinib masanın yanındakı oturacaqda əyləşməyi xahiş etdikdə | «Hesab edək ki, pasiyent geyindi və Sizin iş masanızın yanındakı oturacağa əyləşdi» |
| 14 | Müayinənin sonunda əlləri yumağa cəhd etdikdə | «Hesab edək ki, əllər təmizləndi» |

**Pasiyentə müraciət zamanı akkreditə olunan şəxsin təqribi şərhləri**

*Ssenari 1,2*

| № | Akkreditə olunan şəxsin praktik fəaliyyəti | Akkreditə olunan şəxsin təqribi mətni |
|---|---|---|
| 1 | Pasiyenti güzgünü daxil etdiyinizə dair xəbərdar etmək | «İndi siz biraz narahatlıq hiss edəcəksiniz» |
| 2 | Pasiyenti uşaqlıq boynu müayinəsinə dair xədərdar etmək | «İndi siz biraz narahatlıq hiss edəcəksiniz» |
| 3 | Pasiyenti müayinənin bitdiyinə dair məlumatlandırmaq | «Müayinə bitdi, qalxıb geyinə və oturacağa əyləşə bilərsiniz» |
| 4 | Ehtiyac yaranarsa, pasiyentə qalxması üçün kömək etmək | «Sizə çarpayıdan qalxmağa kömək edim?» |
| 5 | Müayinə nəticələri barədə pasiyenti məlumatlandırmaq | «Müayinə nəticəsində heç bir patalogiya aşkarlanmamışdır<br>1. Orta həcmdə qanlı ifrazat var. Sitoloji müayinə üçün yaxma götürülüb. |

| | | |
|---|---|---|
| | | 2. Orta həcmli qoxulu ifrazat mövcuddur. Mikroskopik müayinə üçün yaxma götürülüb» |
| 6 | Növbəti müayinə planları və təkrar müayinə tarixi haqqında məlumat vermək | «Siz USM keçməlisiniz və 7-10 gün sonra USM nəticələrinizlə təkrar müayinəyə yaxınlaşarsınız, o zamana kimi nəticələriniz hazır olacaq» |

*Ssenari 3,4*

| № | Akkreditə olunan şəxsin praktik fəaliyyəti | Akkreditə olunan şəxsin təqribi mətni |
|---|---|---|
| 1 | Pasiyentdən əllərini gövdə boyu aşağı salmasını xahiş etmək | «Aliyə xanım, zəhmət olmasa əllərinizi gövdə boyu aşağı salın» |
| 2 | Pasiyentdən əllərini yuxarı qaldırıb başının arxasında çarpazlamağı xahiş etmək | «Aliyə xanım, əllərinizi yuxarı qaldırıb başınızın arxasında çarpazlayın» |
| 3 | Pasiyenti palpasiyanı başlamağa dair məlumatlandırmaq | «İndi süd vəzilərinin palpasiyası həyata keçiriləcək» |
| 4 | Müayinəni davam etmək üçün pasiyentə kürəyi üstə çarpayıya uzanmasını təklif etmək | «Zəhmət olmasa çarpayıya uzanın» |
| 5 | Ağrı olduğu təqdirdə məlumat verməyi xahiş etmək | «Əgər ağrı olarsa bu barədə məlumat verin» |
| 6 | Pasiyenti ifrazatın mövcudluğunu yoxlamaq məqsədilə giləni/gilələri sıxmaqla məlumatlandırmaq | «Aliyə xanım, gilədən/gilələrdən ifrazatın mövcudluğunu yoxlamaq məqsədilə süd vəzilərini gilələrinin əsasında sıxıram» |
| 7 | Pasiyentə, ifrazat olduğu təqdirdə yaxma izi götürülməsinin zəruri olduğuna dair məlumatlandırmaq | «Sitoloji müayinə üçün gilədən ifrazat götürməliyik. Siz biraz narahatlıq hiss edə bilərsiniz» |
| 8 | Pasiyenti limfa düyünlərinin palpasiyasına dair məlumatlandırmaq | «Limfa düyünlərinin palpasiyasına başlayıram» |
| 9 | Pasiyentdən çarpayıda oturaq vəziyyət almasını xahiş etmək | «Aliyə xanım, zəhmət olmasa çarpayıda oturaq vəziyyət alın» |
| 10 | Pasiyentdən üzünü ona çevirməsini xahiş etmək | «Aliyə xanım, üzünüzü mənə çevirin» |
| 11 | Müayinənin bitdiyinə dair pasiyenti məlumatlandırmaq | «Müayinə bitdi, qalxıb geyinə və oturacağa əyləşə bilərsiniz» |
| 12 | Müayinə nəticələri ilə bağlı pasiyenti məlumatlandırmaq | 3. «Süd vəzilərinin palpasiyası zamanı, süd vəzisinin yuxarı kvadrantında törəmə təyin edildi» |

| | | |
|---|---|---|
| | | 4. «Süd vəzilərinin palpasiyası zamanı, heç bir patologiya aşkarlanmadı» |
| 13 | Pasiyenti növbəti müayinə planları və təkrar gəliş vaxtıyla bağlı məlumatlandırmaq | «Siz mütləq mammoqrafiyadan keçməlisiniz və 5 gün sonra müayinə nəticələri ilə təkrar müayinəyə yaxınlaşmalısınız» |

**10. Stansiyanın pasportunun normativ-metodik təminatı**


1. C.Qurbanova, G.Rzayeva, M.Jugeli Serviks, uşaqlıq yolu və vulva xəstəlikləri. 2021.
2. Uilyams Mamalıq. Makqrou Hill/Tibb. 26-cı nəşr, 2022
3. Uilyams Ginekologiya. Makqrou Hill/Tibb. 4-cü nəşr, 2021
4. Netter mamalıq-ginekologiya. Rocer P.Smit, Elsevier Science nəşri, 4-cü nəşr nəşr, 2023
5. Mamalıq. H.M.Savelyeva, H.T.Suxix, V.N.Serova, V.Y.Radzinskiy. 2-ci nəşr. M.: ГЭОТАР-Медиа, 2019.
6. https://geekymedics.com/speculum-examination-osce-guide/
7. https://geekymedics.com/vaginal-swabs-osce-guide/
8. https://geekymedics.com/cervical-smear-test/
9. https://geekymedics.com/bimanual-vaginal-examination/
10. https://geekymedics.com/breast-examination-osce-guide/


**11. Akkreditə olunan şəxs/İAK üzvləri üçün istinad məlumatı (Əlavə 1-2)**

**12. Akkreditə olunan şəxsin fəaliyyətlərinin qiymətləndirilməsi meyarları**

Akkreditə olunan şəxsin icra etdiyi işin düzgünlüyünün və ardıcıllığının qiymətləndirilməsi elektron çek-listdə aşağıdakı düymələrin aktivləşdirilməsi vasitəsilə həyata keçirilir:

- «Bəli» - fəaliyyət icra edilib;
- «Xeyr» - fəaliyyət icra edilməyib.

Hər bir pozisiya İAK üzvü tərəfindən elektron çek-listə daxil edilir.

## 13. Vərdişin yerinə yetirilməsi alqoritmi

| № | Akkreditə olunan şəxsin fəaliyyəti |
|---|---|
| 1 | Pasiyentlə salamlaşmaq |
| 2 | Özünü təqdim etmək, öz rolunu qeyd etmək |
| 3 | Tibbi sənədlərlə tutuşduraraq pasiyentdən soruşmaq:<br>• Adı, soyadı, ata adı<br>• Təvəllüdü |
| 4 | Pasiyentdən vəziyyətini soruşmaq |
| 5 | Pasiyentdən, adı ilə müraciət edərək (Aliyə xanım) şikayətlərini soruşmaq<br>• SAT-ı dəqiqləşdirmək |
| 6 | Pasiyenti aparılacaq manipulyasiya haqqında məlumatlandırmaq |
| 7 | Prosedurun keçirilməsi üçün məlumatlandırılmış könüllü razılığın mövcudluğundan əmin olmaq |
| 8 | Pasiyentdən pərdənin arxasına keçməyi və qurşaqdan aşağı soyunmağı və ginekoloji kresloya uzanmağı xahiş etmək |
| **İş yerinin hazırlanması** | |
| 9 | İşıqlandırma avadanlığının işləkliyini yoxlamaq |
| 10 | • Steril əlcəklərin<br>• fərqli ölçülərdə uşaqlıq yolu güzgülərinin<br>• laborator müayinə metodları üçün şüşələrin<br>• sitofırçaların<br>• Folkman qaşıqlarının<br>• steril tənzif kürəciklərin<br>• şüşədə yazmaq üçün markerin<br>• kornsanqın<br>mövcudluğunu yoxlamaq |
| **Həkimin hazırlığı** | |
| 11 | Əlləri gigiyenik üsulla təmizləmək |
| 12 | Müayinədə istifadə olunan tibbi ləvazimatları (güzgülər, əlcəklər, bioloji materialın götürülməsi üçün alətlər) pasiyentin yanında açmaq, qablaşmasından çıxarmaq və ləyənə yerləşdirmək |
| 13 | Steril alətlərin qablaşdırmalarını A sinif tullantı qabına atmaq |
| 14 | Mikroskopiya üçün şüşələri işarələmək (1,5 sm yer saxlanılıb markerlə pasiyentin SA, SAT və yaxmanın götürüldüyü nahiyyə qeyd edilir); Papanikolau üsülu ilə boyanmış yaxmanın sitologiyası üçün 1 şüşə və mikroskopik müayinə üçün 1 şüşə |
| 15 | Əlləri dezinfeksiya edib birdəfəlik steril əlcəklər geyinmək |
| **Xarici cinsiyyət orqanlarının baxışı. Səsləndirmək:** ***Xarici cinsiyyət orqanlarının baxışına başlayıram*** | |
| 16 | Xarici cinsiyyət orqanlarının inkişafı |
| 17 | Tüklənmə xüsusiyyəti |



tsm@mma.edu.az

| | |
|---|---|
| 18 | Dəri örtüklərinin və selikli qişaların vəziyyəti |
| 19 | Vulvar halqa nahiyyəsinin vəziyyəti: kiçik, böyük cinsiyyət dodaqları, klitor və uşaqlıq yolunun arxa bitişməsi |
| 20 | Uşaqlıq yolu dəhlizi və bartolin vəzinin vəziyyəti |
| 21 | Perianal nahiyyənin vəziyyəti |
| 22 | İfrazatın mövcudluğu və ya olmaması, ifrazatın xüsusiyyəti |
| **Güzgülərlə uşaqlıq boynuna və uşaqlıq yolunun selikli qişasına baxış** | |
| 23 | Güzgünü işlək əllə layları II və III barmaqaların arasında qalacaq şəkildə götürmək |
| 24 | Sərbəst əlin I və II barmaqları ilə böyük və kiçik cinsiyyət dodaqlarını aralamaq |
| 25 | Pasiyenti güzgünü daxil etdiyinizə dair xəbərdar etmək, *«İndi siz biraz narahatlıq hiss edəcəksiniz»* |
| 26 | Güzgünü uşaqlıq yoluna mütləq bağlı şəkildə daxil etmək |
| 27 | • güzgünün bağlanma müstəvisi cinsiyyət yarığıyla üst-üstə düşməlidir |
| 28 | Güzgünün daxil olması prossesində, güzgünün tutacağını aşağı endirərək 90° çevirmək lazımdır |
| 29 | Güzgünü açmaq və uşaqlıq boynunu aydın görmək |
| 30 | Pasiyentdən onun vəziyyətini soruşmaq |
| 31 | Güzgünü kilid ilə sabitləmək |
| **Uşaqlıq yolu və boynunun baxışı zamanı qiymətləndirilən parametrləri səsləndirmək:** | |
| 32 | Uşaqlıq yolunun həcmi |
| 33 | Uşaqlıq yolu divarlarının vəziyyəti |
| 34 | Uşaqlıq yolunun selikli qişasının rəngi və vəziyyəti |
| 35 | İfrazatın xüsusiyyəti |
| 36 | Uşaqlıq boynunun ölçüləri və forması |
| 37 | Deformasiyaların mövcudluğu |
| 38 | Uşaqlıq boynunun uşaqlıq yolu hissəsinin səthinin xüsusiyyəti (düz səthli, kələ-kötür səthli) |
| 39 | Uşaqlıq boynunun selikli qişasısının vəziyyəti |
| 40 | Xarici dəliyin vəziyyəti |
| **Sitoloji müayinə üçün endo- və ekzoserviksdən ekskoriativ materialın götürülməsi** | |
| ***Papanikolau üsulu ilə boyanmış yaxmanın sitoloji müayinə metodu üçün endo- və ekzoserviksdən qaşıntı almaq*** | |
| 41 | Kornsanq ilə steril tənzif kürəcik götürmək. Tənzif vasitəsi ilə uşaqlıq boynundan seliyi kürəciklə silmək. |
| 42 | Kürəciyi B sinif tullantı qabına atmaq |
| 43 | Kornsanqı növbəti sterilizasiya üçün dezinfeksiyaedici məhlul olan konteynerə atmaq |
| 44 | Endoserviksdən və ekzoserviksdən materialın alınması<br>Sitofırçanı (F1 Cervix Brush tipli urogenital zond) əsasən ekzoserviksdə yerləşdirmək, 5 dəfə saat əqrəbi istiqamətində ilk “qan şeh” damcıları alınana qədər çevirmək |



tsm@mma.edu.az

| | |
|---|---|
| 45 | Ekzo- və endoservikdən ekskoriativ materialın yaxmasının hazırlanması<br>F1 Cervix Brush tipli urogenital zond vasitəsilə alınan ekskoriativ materialı sitofırça ilə bir dəfə bir istiqamətdə xətti hərəkətlə şüşənin yarısına qədər şüşə boyu çəkmək. F1 tipli sitofırçanı 180° çevirmək və biomaterialı şüşənin geri qalan yarısına xətti hərəkətlərlə çəkərək sitofırçanın şüşə boyu hərəkətini davam etdirmək. |
| 46 | F1 Cervix Brush tipli urogenital zondu B tipli tullantı qabına atmaq |
| 47 | Papanikolau müayinəsi üçün endo- və ekzoserviks yaxmasının hazırlanması<br>şüşəyə çəkilmiş endo- və ekzoserviksdən alınan ekskoriativ materialı sabitləmək: yaxma sahəsini tamamilə örtmək üçün şüşədən 20 sm məsafədən aerozol ilə fiksatoru tətbiq etmək, quruması üçün 10 dəqiqə saxlamaq |
| **Qram üsulu ilə boyanmış yaxmanın mikroskopik müayinəsi üçün əşya şüşəsində bioloji materialın götürülməsi** | |
| 48 | B tipli urogenital zondun (Folkman qaşığı), kiçik tərəfi (diametr 2 mm) ilə servikal kanaldakı ifrazatdan götürmək və maksimum nazik lay ilə şüşədə "C" hərfi ilə nişanlanmış nahiyyəyə çəkmək |
| 49 | Folkman qaşığının enli tərəfi (4 mm) ilə uşaqlıq yolu tağındakı ifrazatdan götürmək və Qram üsulu ilə boyanmış yaxmanın mikroskopik müayinəsi üçün maksimum nazik lay ilə şüşədə "V" hərfi ilə nişanlanmış nahiyyəyə çəkmək |
| 50 | Folkman qaşığını B tipli tullantı qabına atmaq |
| 51 | Şüşələri quruması üçün 10 dəqiqə açıq havada saxlamaq |
| **Uşaqlıq yolu güzgüsünü xaric etmək** | |
| 52 | Güzgünü sabitləşdiricidən çıxarmaq və bağlamaq |
| 53 | Güzgünü əks istiqamətdə çevirərək tədricən çıxarmaq |
| 54 | Güzgünü çıxararkən uşaqlıq yolu divarlarına baxış keçirmək və qiymətləndirmək |
| 55 | Kusko tipli ginekoloji güzgünü B tipli tullantı qabına atmaq |
| **Bimanual uşaqlıq yolu müayinəsi** | |
| 56 | Steril baxış əlcəklərini dəyişmək |
| 57 | Sərbəst əllə böyük və kiçik cinsiyyət dodaqlarını aralamaq |
| 58 | İşlək əlin vəziyyəti: işlək əlin IV və V barmaqları qatlanmış və əlin ovuc hissəsinə gətirilmiş, II və III barmaqlar önə doğru açılmış, I barmaq açıq vəziyyətdə |
| 59 | Pasiyenti uşaqlıq boynu müayinəsinə dair xədərdar etmək, *«İndi siz biraz narahatlıq hiss edəcəksiniz»* |
| 60 | İşlək əlin orta barmağını orta falanqaya qədər uşaqlıq yoluna daxil etmək, daha sonra işlək əlin şəhadət barmağını orta barmağın üzərindən sürüşdürərək uşaqlıq yoluna daxil etmək |
| 61 | Uşaqlıq yoluna daxil edilmiş barmaqları yastıqcıqları üzü yuxarı 90 dərəcə çevirmək |
| 62 | Uşaqlıq yolu müayinəsi zamanı qiymətləndirilən parametrləri səsləndirmək: tağların həcmi, quruluş xüsusiyyətləri və ağrılı/sız olması |
| 63 | Subdominant əli qasıq nahiyyəsinin üstündə, qarının orta xətti boyunca, orta barmaq yastığı göbək və qasıq arasındakı məsafənin ortasında olmaqla yerləşdirmək |
| 64 | Palpasiya yalnız barmaq yastıqları ilə həyata keçirilir |



tsm@mma.edu.az

| | |
|---|---|
| ***Uşaqlığın müayinəsi zamanı aşağıdakıları qiymətləndirmək:*** | |
| 65 | Yerləşməsi |
| 66 | Lateral meyllənmənin mövcudluğu |
| 67 | Forma |
| 68 | Ölçülər |
| 69 | Konsistensiya |
| 70 | Səthi |
| 71 | Hərəkətlilik |
| 72 | Uşaqlıq boynunu hərəkət etdirdikdə ağrının olub-olmaması |
| 73 | Ağrı |
| ***Uşaqlığın sol və sağ artımlarının palpasiyası, trenajor imkanlarının məhdud olmasını nəzərə alaraq qiymətləndirmə parametrlərinin səsləndirilməsi:*** | |
| 74 | Ölçülər |
| 75 | Hərəkətlilik |
| 76 | Ağrı |
| ***Uşaqlıq yolunun sağ, sol, arxa və ön tağlarının palpasiyası və qiymətləndirilən parametrlərin təsviri*** | |
| 77 | Tağların həcmi |
| 78 | Tağların vəziyyəti |
| 79 | Barmaqları uşaqlıq yolundan çıxarmaq və ifrazatı qiymətləndirmək: rəng, kəmiyyət, xüsusiyyət |
| 80 | Əlcəkləri çıxarmaq, B sinif tullantı qabına atmaq |
| 81 | Əlləri gigiyenik üsulla təmizləmək |
| 82 | Pasiyentə müayinənin bitdiyini, onun ayağa qalxıb, geyinə biləcəyini xəbər vermək və nəticələri müzakirə etmək üçün iş masasının yanındakı oturacağa əyləşməyi təklif etmək |
| 83 | Üzərində pasiyentdən alınmış ginekoloji analizlərin doldurulmuş blankları olan masanın arxasına keçmək və oturacaqda əyləşmək |
| **Şərti olaraq sizin iş masanızının yanında əyləşən şərti olaraq geyinmiş şərti pasiyentə xəbər etmək** | |
| 84 | Müayinənin nəticələri |
| 85 | Sonrakı müayinə üçün düzgün plan |
| 86 | Növbəti gəliş üçün düzgün vaxt təyin etmək |



tsm@mma.edu.az

## 14. Vərdişin yerinə yetirilməsi alqoritmi (süd vəzilərinin palpasiyası)

| № | Akkreditə olunan şəxsin fəaliyyəti |
|---|---|
| 1 | Pasiyentlə salamlaşmaq |
| 2 | Özünü təqdim etmək, öz rolunu qeyd etmək |
| 3 | Tibbi sənədlərlə tutuşduraraq pasiyentdən soruşmaq:<br>• Adı, soyadı, ata adı<br>• Təvəllüdü |
| 4 | Pasiyentdən vəziyyətini soruşmaq |
| 5 | Pasiyentdən soruşaraq dəqiqləşdirmək:<br>• Neçə müddətdir ki, siz giləden/gilələrdən ifrazat müəyyən etmisiniz<br>• Öz vəziyyətinizi nə ilə əlaqələndirirsiniz<br>• Müşayiət olunan xəstəliklər varmı |
| 6 | Pasiyenti aparılacaq manipulyasiya haqqında məlumatlandırmaq |
| 7 | Prosedurun keçirilməsi üçün məlumatlandırılmış könüllü razılığın mövcudluğundan əmin olmaq |
| 8 | Əlləri gigiyenik üsulla təmizləmək |
| 9 | Birdəfəlik baxış əlcəklərini geyinmək |
| 10 | Pasiyentdən pərdənin arxasına keçməyi və qurşağa qədər soyunmağı xahiş etmək |
